# İnamla, qətiyyətlə qazanılan Qələbə

**Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinin hər bir döyüş əməliyyatını uğurla həyata keçirdi. Ermənistanı diz çökdürərək tarixi zəfər çalan Azərbaycan Silahlı Qüvvələri həm düşməni məğlub etdi, həm də xalqımızın üç onillik ərzində gözlədiyi arzusunu reallaşdırdı, əzəli torpaqlarımızı işğaldan azad etdi. Bu müharibədə ordumuzun göstərdiyi qəhrəmanlıq, hər bir əsgərimizin qanı bahasına əldə edilən şanlı qələbə xalqımızın yaddaşında silinməz iz qoyub. Hər ötən gün bizi tarixi qələbəmizdən vaxt baxımından uzaqlaşdırsa da, bu böyük Zəfər hər bir azərbaycanlı üçün həm qürur, həm də dərin minnətdarlıq mənbəyidir. Çünki biz illərlə torpaqlarımızın geri qaytarılacağı ümidi ilə yaşadıq, bu tarixi anın həsrətində olduq.**




90-cı illərin əvvəllərində müstəqilliyini bərpa edən Azərbaycanın başını qara buludlar aldı. AXC-Müsavat hökumətinin hakimiyyəti ələ alması ilə ölkədə yaranan xaos, nizamsızlıq düşmənə məkrli planlarını həyata keçirmək imkanı verdi. Ermənistan havadarlarının hərbi-siyasi dəstəyindən faydalanaraq torpaqlarımızın 20 faizini işğal etdi. Bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qaldı. İşğal illərində şəhər və kəndlərimiz erməni vandalizminin qurbanı oldu. Tarixi irsimiz, mədəni abidələrimiz dağıdıldı, yurd yerlərimiz xarabalığa çevrildi. Dünyanın böyük dövlətləri, beynəlxalq təşkilatlar isə Ermənistanın bu təcavüzkar siyasətinə göz yumdu. Münaqişənin sülh yolu ilə həllinə məsul olan ATƏT-in keçmiş Minsk qrupu illərlə münaqişənin dondurulmuş vəziyyətdə qalmasına şərait yaratdı. Bu ədalətsiz münasibət Ermənistanın işğalçılıq iddialarını daha da gücləndirir, status-kvonu əbədi saxlamaq arzusu ilə müxtəlif təxribatlara əl atmasına səbəb olurdu. Lakin Azərbaycan xalqı ədalət və haqq yolunda mübarizəsini sona qədər davam etdirdi. Ordumuzun hər bir əsgərinin canı, qanı ilə yazdığı bu zəfər dastanı 30 illik gözləntinin nəticəsi idi. Ermənistanda səslənən "yeni ərazilər uğrunda yeni müharibə" təhdidlərinə cavab olaraq xalqımız bir daha sübut etdi ki, haqq, ədalət, vətənpərvərlik və milli iradə qələbə çalır.

## Haqq səsimizin qələbəsi

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, işğal faktının ədalətli çözümü üçün səylərimiz davam etdi. Beynəlxalq tədbirlərdə, platformalarda haqq səsini ucaldan dövlətimiz böyük əzmkarlıqla işğalçı ölkəni dünya ictimaiyyətinə tanıtmağa çalışdı. Bütün böyük beynəlxalq təşkilatlar - BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə tanıdı və bu mövqeyini bəyan etdi. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və BMT Baş Assambleyasının qərarları haqlı mövqeyimizin hüquqi bünövrəsini daha da möhkəmləndirdi. Azərbaycan xalqı ölkə başçımızın "Qarabağ Azərbaycandır!" çağırışına qoşularaq doğma torpaqlarımıza olan sevgisini, haqq və ədalət yolunda sonsuz əzmini göstərdi. Qarabağın əzəli Azərbaycan torpağı olması, tarixi və mədəni irsimizin ayrılmaz hissəsi kimi tanınması üçün məqsədyönlü səylərimiz Ermənistanın illərdir davam edən yalan təbliğatına ağır zərbə vurdu. Müxtəlif informasiya portallarında, beynəlxalq təşkilatların tribunalarında xalqımızın haqlı mübarizəsi dünya ictimaiyyətinə çatdırıldı. Əsrlər boyu bu torpaqlarda kök salmış mədəniyyətimiz, milli kimliyimiz haqqındakı gerçəkləri dünya gördü. Vətən müharibəsində xalqımızın bu həqiqətlər uğrunda apardığı mübarizə haqqın qələbəsi ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün ərzində düşmənin təxribatçı, işğalçı siyasətinə son qoydu. Hər gün irəliləyən ordumuzun hər bir əməliyyatda göstərdiyi hünər düşməni sarsıtdı, Ermənistanda panika yaratdı. Müharibə zamanı düşmən ordusunun təxminən 11 min əsgər və zabiti fərarilik edərək döyüş meydanını tərk etdi. Bu, onların işğalçı siyasətinin iflası idi. Azərbaycanın haqq işi təkcə hərb meydanında deyil, həm də diplomatik müstəvidə qələbə qazandı. Artıq dünya bildi ki, Qarabağ xalqımızın tarixi, mədəniyyəti, milli kimliyinin beşiyidir. Şanlı qələbə ilə nəticələnən bu müqəddəs mübarizədə tariximizin ən şanlı səhifələri yazıldı və sübut olundu ki, heç bir haqsız güc haqqı məğlub edə bilməz.




## Şuşa zəfəri

Vətən müharibəsinin gedişində Azərbaycan Ordusunun həyata keçirdiyi unikal əməliyyatlardan biri Şuşanın işğaldan azad edilməsi idi. Bu əməliyyat yalnız döyüş meydanında qazandığımız şanlı qələbənin rəmzi deyil, həm də Azərbaycan xalqının iradəsinin, məğlubedilməzliyinin təcəssümüdür. Qarabağın tacı, döyünən ürəyi sayılan Şuşanın azad olunmasının iki yolu var idi: ya ağır hava zərbələri və top atəşləri ilə şəhəri məhv etmək, ya da əlbəyaxa döyüş yolu ilə onu almaq. Azərbaycan komandirləri əlbəyaxa döyüş taktikasını seçdilər. Ordumuz döyüşün ən çətin anlarında qalın meşələrdən, dərin dərələrdən, daş dağlardan keçərək düşməni məhv etdi. Onların şücaəti, vətənə olan dərin sevgisi və cəsarəti Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda apardığı mübarizənin tarixində əbədi qalacaq. Oktyabrın ortalarında Ordumuz Hadrut qəsəbəsi və ətraf kəndləri işğaldan azad etdi, ardınca isə Şuşa istiqamətində irəlilədi. Ərazi nəqliyyat üçün uyğun olmadığı halda Azərbaycan qüvvələri beş gün boyunca Şuşaya piyada hərəkət etdi. Prezident İlham Əliyev bu məqamı xüsusilə vurğulamışdır ki, əsgərlərimiz bu böyük zəfəri əldə etmək üçün yarğanları, meşələri və dağları aşmış, onların iradəsi heç bir çətinlik qarşısında sarsılmamışdır. Ermənistanın komandanlığının Azərbaycan qoşunlarının Şuşaya hücumunu gözlədiyi əsas istiqamətlərdən biri Qırmızı Bazar ətrafı idi. Lakin Ordumuzun komandanlığı öz planına, strategiyasına əsaslanaraq Qarabağın sıx meşələri arasındakı ən çətin, lakin sürətli yolu seçdi. Azərbaycan qüvvələri Çanaqçı kəndini işğaldan azad etdikdən sonra noyabrın 4-də strateji əhəmiyyətə malik Şuşa-Laçın yolunun bir hissəsini nəzarətə aldı. Noyabrın 6-da isə yüngül silahlarla təchiz edilmiş və hər biri 100 nəfərdən ibarət dörd qrupa bölünən 400 nəfərlik Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri Şuşanın sıldırım qayalarına dırmaşaraq səhər saatlarında şəhərə dörd tərəfdən daxil oldular. Döyüşlər başladı və düşmən böyük itki verdikdən sonra günortaya doğru şəhəri tərk etmək məcburiyyətində qaldı. Erməni qüvvələrinin Şuşa üzərində nəzarəti bərpa etmək məqsədilə son hücumları Azərbaycan Ordusunun əzmkar müqaviməti ilə qarşılaşdı. Noyabrın 7-də Ermənistanın qadağan olunmuş "İsgəndər-M" raketləri atmasına baxmayaraq, bu atəşlərin döyüşün taleyini dəyişdirmək gücü olmadı, Ordumuz şanlı qələbə çaldı.

Şuşa zəfəri, əslində müharibənin taleyini dəyişdi. Ertəsi gün - noyabrın 9-da 70-dən çox kəndin işğaldan azad edildiyi xəbərini aldıq. Bu böyük zəfərin ardından Ermənistanın baş naziri, Azərbaycan Prezidentinin şərtlərini qəbul edərək kapitulyasiya aktını imzalamağa məcbur oldu. Noyabrın 10-da Prezident İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin tərəfindən münaqişə zonasında atəşin dayandırılması ilə bağlı imzalanan üçtərəfli Bəyanat Azərbaycanın tarixi zəferinin təsdiqi oldu. Bu bəyanatla Ağdam, Kəlbəcər və Laçın rayonları işğaldan azad edildi. Bu tarixi zəfər həm hərbi müstəvidə, həm də beynəlxalq hüquqda qazanılan qələbə idi.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

